*Prezident Heydər Əliyev (solda) və prezident Levon Ter-Petrosyan (sağda) Türkiyə prezidenti Suleyman Dəmirəllə birlikdə, 1997-ci il, aprel.*

*Mənbə: Röyter*

# "Lazımi vaxtda" ələ keçməyən "lazımi düstur":

## rəsmi sülh prosesinin tarixi təhlili

Jerayr Libaridyan

1992-ci ilin martında Ermənistan və Azərbaycan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM) daxil olduqdan dərhal sonra nazirlər səviyyəsində Qarabağ münaqişəsi üzrə vasitəçiliyin yaradılması barəsində qərar qəbul edildi. Minsk Konfransı mexanizminin vasitəsilə aparılan ATƏM-in vasitəçiliyi (1994-cü ildən Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı - ATƏT) danışıqların davam etdirilməsi üçün yol açdı. Baxmayaraq ki, danışıqlar müxtəlif çözüm variantlarını müzakirə etməyə imkan yaratdı (bu təkliflər gələcəkdə də qənaətbəxş həll yolunu tapmaqda kömək edə bilər), ATƏT-in vasitəçiliyinin özünün heç bir bəhrəsi olmadı. Hətta iki mərhələ müddətində əldə edilmiş 1994-cü ilin atəşkəsi Rusiyanın birtərəfli səyləri və münaqişə tərəflərinin birbaşa danışıqlarının nəticəsi idi.

Dağlıq Qarabağın statusunu müəyyən etmək üçün yığıncağın keçirilməsinə dair Minsk Konfransının məqsədinin gerçəkləşməsinə ilkin olaraq, cəbhədəki vəziyyət imkan vermədi. 1992-ci ilin yayına planlaşdırılmış konfrans eləcə də baş tutmadı, bundan sonra, elə həmin il, Minsk Konfransının adı dəyişib Minsk Qrupu, daha sonra isə, `Minsk Prosesi` oldu. Cəbhədə davam edən döyüşlər daim Minsk Qrupunun vasitəçilik cəhdlərinə əngəl törədirdi: 1993-cü il boyunca ermənilərin bir-bir Azərbaycan rayonlarını ələ keçirməsi Minsk Qrupunu yeni təkliflər üzərində işləmək əvəzində hərbi əməliyyatların nəticələrini aradan qaldırmaq üçün planlar və qrafiklər hazırlamağa məcbur edirdi. İşi sürətləndirmək üçün Minsk Qrupunun iclasları Ermənistan və Azərbaycanın iştirakı olmadan keçirilməyə başladı, çünki bu iki dövlətin qoyduqları veto hər hansı təklifin taleyinə hələ işıq üzü görməzdən əvvəl son qoyurdu. Sonda doqquz iştirakçıdan ibarət olan bu qrupun da görüşləri dayandırıldı. Qrupun işi üzrə bütün məsuliyyəti öz üzərilərinə götürən həmsədrlər Minsk Qrupunun digər üzvlərinə məlumat verməyə belə özlərini zəhmətə salmırdılar. 1999-cu ilin yazından bəri həmsədrlər (Rusiya, ABŞ və Fransa) bir addım geri çəkilərək Ermənistan və Azərbaycan prezidentləri, və son vaxtlarda xarici işlər nazirləri arasında birbaşa danışıqlarda yalnız yardımçı funksiyasını özləri üçün saxladılar.

Bu məqalədə ATƏT prosesinin bütün çatışmayan cəhətlərini təhlil etmək mümkün deyil. Lakin bunların arasında aşağıdakı zəiflikləri qeyd etmək lazımdır: Dağlıq Qarabağın bu prosesdə tam hüquqlu üzv kimi yox, yalnız maraqlı tərəf kimi iştirakı və bununla bağlı olan ikili vəziyyəti və münasibəti; prosesin ilk illərində rəhbərlərin tez-tez dəyişməsi; Qrupun əsas üzvlərinin bərabər şəkildə maraqlı olmadıqları, diqqətlərini tez-tez digər beynəlxalq münaqişələrə yönəltmələri; üzvlər arasında sıx əlaqələrin olmaması və münaqişə tərəflərinə birgə təsir göstərmək imkansızlığı, və nəhayət, on bir ölkənin və üstə gəl Dağlıq Qarabağın nümayəndələrinin iştirak etdiyi prosesin

Jerar Libaridyan Miçiqan Universitetinin Tarix Kafedrasında Qafqaz üzrə mütəxəssisdir. 1991-97-ci illərdə Ermənistanın birinci prezidentinin müşaviri və baş müşaviri vəzifəsini tutmuş, Qarabağ məsələsi üzrə danışıqlarda bilavasitə iştirak etmişdir.



həcmi. İsrarlı cəhdlər olmadığından, arbitraj mexanizmi kimi yaradılmış Minsk Konfransı vasitəçilik prosesi kimi fəaliyyət göstərərək, sonda yardımçı mexanizmə çevrildi.

## Münaqişə tərəflərinin problemləri və məsuliyyəti

Nəticə etibarı ilə, münaqişənin nizamlanmasının məsuliyyəti münaqişə tərəflərinin üzərinə düşür. Barışıq siyasətini ardıcıl və inadla həyata keçirməklə tərəflər münaqişənin beynəlxalq səviyyəyə çıxarılması ilə əlaqədar yaranmış bütün maneələri aradan qaldıra bilərdilər. Lakin tərəflərin hər biri öz əməllərinə bəraət qazandırmaq üçün tarixi, mənəvi və hüquqi arqumentlərində israrlı idi. Onlara elə gəlirdi ki, hətta kiçicik rəmzi və ya real güzəşt belə onların təhlükəsizliyini, kimliklərini və gələcəyini təhlükə altına qoya bilər. Bu baxışlar "sovet respublikalarının qardaşlığı" barəsində bəyanatların yerinə gəlmiş siyasi və millətçi ritorikanın bir hissəsinə çevrildi. Bu inancların təsirinə düşmüş və yeni müstəqil dövlətlərdə yenicə yaranmış təbiətən zəif siyasi strukturların əsirliyində olan tərəflər öz hərbi, iqtisadi, siyasi və diplomatik resurslarını, və qarşı tərəfə öz iradəsini yeritmək imkanlarını çox yüksək qiymətləndirirdilər. Bu vəziyyət Azərbaycan üçün münaqişənin ilk illərində və Ermənistan üçün 1997-ci ildən sonra xüsusilə səciyyəvi idi. Azərbaycan əmin idi ki, hərbi qələbə çalıb erməniləri Dağlıq Qarabağ Muxtar Vilayətindən (DQMV) çıxaracaq, lakin nəticədə əksinə oldu. Erməni tərəfi düşünürdü ki, onların hərbi qələbəsi azərbaycanlıları güzəştə getməyə məcbur edəcək. Azərbaycanlılar isə, öz növbələrində ərazi bütövlüyü prinsipinin beynəlxalq toplum tərəfindən dəstəyini nəzərə alaraq, bunu etmək fikrində deyildilər. Danışıqlarda yaranmış ən azı bir kritik məqamda hər iki tərəf onların tələblərini ödəyə bilən təklifləri rədd etdilər. Tərəflərdən hər biri güman edirdi ki, vaxt onların tərəfindədir və əks tərəfdən daha böyük güzəştlərə ümid etməyə əsas var.

Bütün danışıqlar konfidensial, hətta məxfi xarakter daşıyırdı. ATƏT və tərəflərin özləri hər hansı sənəd üzrə razılaşma əldə edilməyənə kimi müxtəlif variantların və təkliflərin detallarını açıqlamaq istəmirdilər. Bu cür yanaşma ictimaiyyəti sülh prosesindən kənarda qoymaqla bütün təkliflərə qarşı şübhələr oyadırdı. Belə vəziyyətdən öz demaqoq məqsədləri üçün müxalifət qrupları məharətlə istifadə edirdilər. Siyasi cəhətdən zəif olan hakimiyyət üçün xəyanət və milli maraqların satılması ittihamlarına cavab vermək kifayət qədər çətin idi. Millətçi ritorika ilə gərginləşmiş mühitdə hakimiyyət ağlabatan təkliflər ətrafında ictimai dəstəyə adətən nail ola bilmədiyindən "kütləni" kompromislərə hazırsızlıqda ittiham edirdi.

## Ermənistan və onun dilemmaları

Proses Ermənistanla Dağlıq Qarabağın mövqelərində olan ixtilaflarla çətinləşirdi. Baxmayaraq ki, vasitəçilərin əksəriyyəti hər iki regionun siyasətinin Ermənistandan diktə edilməsini gözləyirdi, Azərbaycan isə buna yalnız Ermənistanın işlətdiyi hiylə kimi baxırdı, Dağlıq Qarabağın müstəqil siyasi qurum kimi inkişaf etməsi Yerevanla Stepanakert arasında daimi gərginliyə səbəb oldu. Ermənistanın iqtisadi və hərbi köməyinə arxalanan Dağlıq Qarabağ öz xarici siyasətini yalnız bir məsələ ətrafında qurmağa müvəffəq olmuşdur, bununla müqayisədə Yerevanın qonşuları və bütün dünya ilə münasibətləri müxtəlif istiqamətlərdə inkişaf edirdi. Necə ki, Ermənistanın münaqişədə tutduğu mövqeyi onun dünya toplumu ilə münasibətlərinin xarakteri və həcmini müəyyən edirdi, eləcə də bu münasibətlərin müxtəlif aspektləri münaqişənin həllində Yerevanın variantlarını məhdudlaşdırırdı. Yerevanın kompromisə hazır olduğu zamanlar

Stepanakert müqavimət göstərə bilirdi, və adətən də öz dediyinin üstündə dururdu, çünki Azərbaycanın tabeçiliyindən çıxmaq uğrunda Dağlıq Qarabağın apardığı mücadiləni bütün ermənilər dəstəkləyir və bu mübarizəni erməni xalqının çəkdiyi əzablarına görə aldığı tarixi qisas kimi görürdülər.

Atəşkəs razılaşması imzalandıqdan sonra Yerevanla Stepanakertin münasibətləri sülh prosesinin problemlərini bütövlüklə əks edirdi. Bu problemləri iki əsas qrupa bölmək olar: birincisi, tərəflərin üç başlıca məsələ - status, təhlükəsizlik və (blokada, qaçqın və məcburi köçkünlərin aqibəti də daxil olmaqla) münaqişənin nəticələri ilə bağlı mövqeləri; ikincisi, bu problemlərin çözüm metodları: sadalanan üç mühüm məsələni paket şəklində həll etmək, yoxsa status məsələsini ən mürəkkəb məsələ olduğundan tənzimləmənin növbəti mərhələsinə kimi saxlamaq lazımdır?

Ermənistan prezidenti Levon Ter-Petrosyan öncə 1988-ci ildə Qarabağ komitəsinə başçılıq edərkən, Qarabağ probleminə dair formalaşmış baxışlarını sonradan dəyişdi. O vaxtlar Ter-Petrosyan Qarabağın Ermənistanla birləşməsinin tərəfdarı idi. Sonralar Ermənistan prezidenti qismində onun mövqeyi Dağlıq Qarabağın təhlükəsizliyi və öz müqəddəratını təyin etmə hüququ kontekstində səslənirdi, və bununla da bu mövqe beynəlxalq ictimaiyyət arasında dəstək tapmayan müstəqillik qazanma və ya Ermənistanla birləşmə vəzifələrini heç də mütləq şəkildə əks etmirdi. Ter-Petrosyan belə bir kompromisə nail olmaq istəyirdi ki, bu kompromis çərçivəsində Ermənistan tərəfi Dağlıq Qarabağı hüquqi cəhətdən Azərbaycanın tərkibində saxlamağa razı olacaqdı, Azərbaycan isə, öz növbəsində Dağlıq Qarabağa 1988-ci ilə qədər olan nominal muxtariyyətdən nisbətən geniş, lakin müstəqil respublikadan nisbətən kiçik status verməyə razı olacaqdı. Bundan əlavə, Azərbaycan blokadanı götürməli və etibarlı təhlükəsizlik zəmanətləri verməli idi, bunların arasında ermənilərin Laçın dəhlizinə nəzarət etməsi və Ermənistanın Dağlıq Qarabağın statusunu və əhalisini qorumaq hüququ da olmalı idi. Eyni zamanda, güman edilirdi ki, Dağlıq Qarabağ üzrə hər hansı razılaşma Türkiyəni Ermənistanla münasibətlərini yaxşılaşdırmağa sövq etməlidir. Beləliklə, Ter-Petrosyan DQMV-nin birtərəfli qaydada elan etdiyi müstəqilliyini tanımaqdan imtina edirdi və ümid edirdi ki, Azərbaycan hərbi qələbə və ardınca gələn etnik təmizləmə vasitəsilə Qarabağ üzərində tam nəzarəti ələ keçirmək niyyətindən vaz keçəcək.

Azərbaycan yalnız özünün təklif etdiyi həll yolu ilə status məsələsini həll etmək istəyində idi, eyni mövqeni Qarabağ rəhbərliyi tuturdu. Status barəsində yaxın gələcəkdə razılığa gəlmək mümkünlüyü görünmədiyindən, Ter-Petrosyan administrasiyası üçün nizamlamanın paket variantının iflasa uğraması qətiyyən qəbuledilməz idi, buna görə də 1993-cü ildə bu rəhbərlik mərhələli tənzimləmə sxemini həyata keçirmək haqqında praqmatik qərar qəbul etdi. Bu mövqenin məntiqi ondan ibarət idi ki, Ermənistan blokadaya tab gətirsə də, qonşularla münasibətlər yaxşılaşmayanadək və hərbi əməliyyatların yenidən başlanması ehtimalı qalanadək ölkə iqtisadiyyatının inkişafı çətin və ya hətta mümkünsüz olacaq. "Nə sülh, nə savaş" vəziyyəti hərbi hazırlığı təmin etmək üçün əsaslı dövlət resurslarını tələb edirdi, bunun əvəzində həmin vəsait sosial ehtiyaclara, iqtisadi və sosial islahatlara və zəruri sərmayələrin cəlb edilməsinə sərf oluna bilərdi. Ter-Petrosyan hakimiyyəti inanmırdı ki, diasporun köməyi Azərbaycanın malik olduğu üstünlüklərə - dünya toplumunun (Ermənistanın fərz edildiyi dostları - Rusiya və İran daxil olmaqla) Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyə və maliyyə resursu və diplomatik vasitə kimi istifadə olunan neftə bərabər ola bilsin.

Ter-Petrosyan hər hansı ərazi ambisiyalarını nəzərdə tutan siyasətdən imtina edərək, əsas diqqəti Qarabağın erməni əhalisinin öz tarixi vətənlərində təhlükəsiz və azad yaşamasına yönəldirdi. Danışıqlar strategiyasının əsasında duran düstur ərazilərin sülh əvəzinə qaytarılmasından ibarət idi. Digər tərəfdən, Dağlıq Qarabağ "status əvəzinə torpaqlar" variantını dəstəkləyirdi və belə arqument gətirirdi ki, zəbt edilmiş ərazilər Azərbaycandan tam ayrılmaq, Ermənistana birləşmək mümkün olmasa da, ən azı Azərbaycandan kənarda müstəqil olmaq məqsədinə çatmaq üçün ən güclü vasitədir. Bununla bərabər, Bakıdakı rəhbərlik əmin idi ki, zaman amili, neft diplomatiyası və ərazi bütövlüyü prinsipinin xaricdən dəstəklənməsi gec-tez Qarabağı onlara qaytaracaqlar. Beləliklə, həm Dağlıq Qarabağ, həm də Azərbaycan əslində mərhələli tənzimləmə variantını rədd edib danışıqlarda yalnız vaxt öldürürdülər.

## Əldən verilmiş şanslar

Lakin həm paket, həm də mərhələli nizamlama öz bəhrəsini verə bilərdi və razılaşmanın əldə edilməsinə yaxınlaşmışdı. Ermənistanın təşəbbüsü ilə prezident Əliyev və prezident Ter-Petrosyanın şəxsi və səlahiyyətli nümayəndələri arasında 1995-ci ilin dekabr - 1996-cı ilin noyabr aylarında aparılan birbaşa və gizli danışıqlar xeyli irəliləmiş və statusla bağlı qərarın qəbul edilməsi ilə nəticələnə bilərdi, əgər Azərbaycan 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində "neft kartından" düzgün istifadə edəcəyinə arxalanıb danışıqlarda getdiyi güzəştlərə ehtiyac olmadığını hesab etməsəydi. Əliyev düşünürdü ki, Azərbaycanda neftin kəşfiyyatı üzrə konsessiyalar almış ölkələri əmin etmək olar ki, muxtariyyət və təhlükəsizliklə bağlı dumanlı vədlər əvəzində onlar Ermənistana təzyiq göstərib onu Dağlıq Qarabağı Azərbaycanın tərkibində tanımağa məcbur etsinlər. Sammitdə Ermənistanın veto qoyduğu bu manevr status barəsində bu məsələ ilə bağlı yeganə əsaslı danışıqlarda qərarın əldə edilməsi şansını heçə endirdi.

Buna baxmayaraq, gizli danışıqların bəzi elementləri bir-birinin ardınca 1997-ci ilin may və

iyul aylarında təklif edilmiş Minsk Qrupunun iki paket variantına daxil edildi. Qarabağ hakimiyyəti dərhal hər iki variantı rədd etdi, Azərbaycan tərəddüd edirdi, Ermənistan isə ciddi düzəlişlərlə təklifləri qəbul etdi, bu düzəlişlər sonrakı danışıqlarda həll edilməli idi.

Nəticədə 1997-ci ilin sentyabrında Minsk Qrupu problemin mərhələli həllinə söykənən təklif irəli sürdü. Status və Laçın rayonunun məsələləri bu təklifdən kənarda qaldı, bu məsələlər barəsində razılığa gələcəkdə gəlmək nəzərdə tutulurdu. Bununla bərabər, işğal edilmiş rayonların, blokada və qaçqınlar məsələsinin həlli bu təklifə daxil edilmişdi və güman edilirdi ki, bunların əsasında sülh sazişi imzalanacaq və normal durum bərqərar ediləcək. Ermənistan və Azərbaycan böyük düzəlişlərlə də olsa, bu təklifi qəbul etdilər, lakin Qarabağ rəhbərliyi və Ter-Petrosyan hökumətində bir neçə nüfuzlu şəxslər paket çözümünə təkid edərək bu sxemi rədd etdilər. Daxildən edilən güclü müqavimət Ter-Petrosyanın istefası və 1998-ci ilin aprelində keçmiş Dağlıq Qarabağ prezidenti Robert Koçaryanın Yerevanda hakimiyyətə gəlməsi ilə nəticələndi. 1997-ci ilin sentyabr təklifinə qarşı çıxan Koçaryan və onun tərəfdarları hesab edirdilər ki, erməni tərəfi Dağlıq Qarabağa müstəqillik qazandıra bilən və ya Ermənistanla birləşməyə gətirib çıxara bilən paket variantında tamamilə israr edə bilərdi. Onlar Ter-Petrosyanın tezliklə münaqişəni nizamlamaq niyyətini dəstəkləmir və iqtisadi inkişafı ləngidən blokadaya böyük əhəmiyyət vermirdilər. Bunun əvəzində onlar Ter-Petrosyanı diaspordan tam istifadə etməməkdə və ölkənin "mənəvi ehtiyatlarını", məsələn, hamının tarixi ədaləti bərpa etmək istəyini, ümumi haqlılıq duyğusuna müraciəti və müxtəlif siyasi əqidəsi olan insanları bürümüş vahid vətənpərvərlik coşqunluğunu maksimal dərəcədə səfərbər edə bilməməkdə ittiham edirdilər.

1997-ci ilin sentyabr təklifindən təqribən bir il sonra Minsk Qrupu danışıqlar masasına münaqişənin paket həllinə dair daha bir sənəd qoydu, bu sənədin özülündə digər münaqişələrdə tez-tez tətbiq edilən "ümumi dövlət" sxemi dururdu. Bu təklif muxtariyyət anlayışının güman etdiyi şaquli münasibətlər əvəzinə Dağlıq Qarabağla Azərbaycan arasında üfüqi münasibətləri nəzərdə tuturdu. Ermənistan və Dağlıq Qarabağ böyük düzəlişlər etsələr də, bu variantla razılaşdılar. Deyilənə görə, Azərbaycan bu sənədi ilkin hazırlıq mərhələsində qəbul etmişdi, lakin sonradan ondan imtina etdi. 1999-cu ilin aprelin əvvəlindən danışıqlar prosesi prezidentlər səviyyəsinə qalxaraq Minsk Qrupunun həmsədrlərini adi seyrçilərə çevirdi. 1999-cu ilin yayında danışıqların əsasını təşkil edən mühüm konsepsiya torpaq mübadiləsi prinsipi idi. Koçaryan Dağlıq Qarabağın Ermənistanla birləşməsini tələb edirdi və əsas etibarilə Əliyevin Ermənistanın cənubunda yerləşən və Naxçıvan muxtariyyətini Azərbaycandan ayıran Mehri rayonu üzərində nəzarəti ələ keçirməklə bağlı əks-tələbi ilə razılaşırdı. Lakin bu ağlabatmayan və son dərəcə qəbuledilməz variant Koçaryanın bu məsələyə mövqeyi dəyişdikcə iflasa uğradı. Həmin vaxt o, mübahisəli ərazi üzərində tam suverenlik əvəzində Azərbaycana Mehridən keçid hüququnu təklif etdi. Əliyev öz tərəfdarlarını mübadiləsi hətta ilkin variantına razı salmaqda çətinlik çəkirdi, buna görə də yeni düzəlişlər edilən formul barəsində söz belə gedə bilməzdi. 2000-ci ildə prezidentlərin Ki-Uest görüşündə ABŞ bu variantı həyata keçirməyə son cəhd göstərsə də, arzu edilən nəticələr əldə olunmadı.

## Geriyə dönüş?

2003-cü ildən bəri danışıqlarda Ermənistan və Azərbaycan xarici işlər nazirləri iştirak edirlər, və vaxtaşırı iki prezidentin görüşləri də baş tutur. Azərbaycan hazırda yenidən mərhələli çözüm mövqeyinə qayıdıb və xüsusən də, Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəmərinin tikintisi bitdikdən sonra əmindir ki, zaman onun tərəfindədir. Baxmayaraq ki, Yerevan birinci mərhələ üzrə qəbul edilən istənilən razılaşmada status məsələsinin gələcəkdə necə həll ediləcəyi barəsində hər hansı işarə görmək istəyirdi, Ermənistan həvəssiz olsa da, Azərbaycanın ardınca eyni addımı atdı. Ki-Uest görüşündən sonra Minsk Qrupunun həmsədrləri bir dəfə də olsa öz təklifləri ilə çıxış etməmişlər, beləcə onların iştirakı sırf formallığa çevrildi. Hərbi əməliyyatların yenidən baş qaldırmaması faktından məmnun qalan Rusiya, ABŞ və Fransa həmin vaxtdan öz diqqətlərini daha təcili işlərə yönəltdilər, Stepanakert isə ikitərəfli müzakirələrdə qətiyyən iştirak etmədi.

Vaxt amili münaqişənin heç bir tərəfinə fayda gətirmədi. Vaxt getdikcə işğal edilmiş torpaqları qaytarmaq bir o qədər çətinləşir. Ermənistan, Azərbaycan və Dağlıq Qarabağın iqtisadi inkişafı əhalinin əksəriyyətinin yaşayış səviyyəsinin yaxşılaşmasına təsir etmədi. Ermənistanın ümidlərinə baxmayaraq, beynəlxalq toplum əldə edilmiş status-kvo vəziyyətini təsdiqləmədi. Azərbaycan hökumətinin də ümidləri boşa çıxdı, çünki elə həmin beynəlxalq toplum onların formal mövqeyi və hüquqi dəlillərinə baxmayaraq, Ermənistanı əraziləri tərk etməyə məcbur etməkdən çəkindi. Diaspor Ermənistanı həm siyasi, həm də iqtisadi cəhətdən dəstəkləməyə davam etsə də, o, böyük dövlətlərin mövqelərinə ciddi surətdə təsir göstərə bilmədi və əsas səylərini erməni xalqının soyqırımının tanınmasına cəmləşdirir.

Nəticə etibarilə, son razılaşmanın əldə edilməsi üç amildən asılıdır: tərəflər hiss etməlidirlər ki, münaqişənin tənzimlənməsi yubadılmazdır; düşmənçilik ritorikası ilə yaşayan cəmiyyətlərdən kompromis həlli yoluna dəstək almaq üçün bu ölkə rəhbərlərinin kifayət qədər siyasi kapitalı olmalıdır; belə bir çözüm regional və beynəlxalq iştirakçıların birgə və qətiyyətli köməyini almalıdır. Danışıqlar vasitəsilə əldə edilə bilən razılaşmanın iki alternativi - hərbi əməliyyatların yenidən başlanması və ya böyük dövlətlərin hərbi müdaxiləsi çətin ki, tərəflər üçün arzu ediləndir.